# Ötən əsrin 60-cı illərində Azərbaycanda nəzəri pedaqogikanın inkişafı

**Əlibala Zal oğlu Zalov**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*
**E-mail:** alibala_zalov@gmail.com

**Rəyçilər:** p.ü..f.d., dos. G.V. Sultanova,
p.ü..f.d., dos. F.M. Allahverdiyeva

**Açar sözlər:** pedaqogika, təhsil, məktəb, tərbiyə, bilik, dərslik, inkişaf
**Ключевые слова:** педагогика, образование, школа, воспитание, знания, учебник, развитие
**Key words:** pedagogy, education, school, upbringing, knowledge, textbook, development

Professor Mərdan Muradxanovun ümumi redaktorluğu ilə 1964-cü ildə çap olunmuş "Pedaqogika" dərsliyinin əsas bölmələrindən biri tərbiyə nəzəriyyəsini əhatə edir. Əvvəlki yazımda geniş mənada tərbiyəni əhatə edən təhsil və təlimdən danışmışdıq. Burada isə əsas söhbət dar mənada tərbiyədən gedir. Yəni tərbiyə prosesinin xüsusiyyətlərindən, onun mahiyyətindən, prinsip və üsullarından, bədii və fiziki tərbiyənin vasitə və yollarından, ümumən uşaq kollektivinin formalaşdırılmasından, məktəbşünaslıqdan, məktəbdə sinif rəhbərinin işindən, habelə uşağın tərbiyəsində məktəb və ailənin birgə işindən bəhs ediləcək.

Tərbiyə işlərinin xüsusiyyətlərindən danışdıqda qeyd etməliyik ki, uşaq şəxsiyyətinin formalaşmasında təlim mühüm rol oynayır. Bununla uşaqlar elmi biliklərlə, faydalı vərdiş və bacarıqlarla silahlanır, onların görüş dairəsi genişlənir və dünya baxışları təşəkkül tapır. Belə nəticə çıxarmaq olar ki, təlim uşaq şəxsiyyətinin təşəkkülündə mühüm vasitədir. Tərbiyə işlərinin nəticəsi də öz növbəsində təlim müvəffəqiyyətinin artmasına yaxşı təsir edir. Təlimlə tərbiyənin belə qarşılıqlı əlaqəsi sayəsində uşaq zehni cəhətdən inkişaf edir, elmi biliklərə və əxlaqi sifətlərə yiyələnir. "Pedaqogika" müəllifləri təhsillə tərbiyənin belə qarşılıqlı əlaqəsini hələ XIX əsrin 60-cı illərindən duymuş məşhur rus pedaqoqları N.I.Piroqov və N.Q.Çernişevskinin əsərlərindən əxz edərək əsaslandırmağa çalışmışlar. N.Q.Çernişevskiyə görə, təhsil almış adam çox böyük bilik kəsb etmiş və bundan əlavə nəyin yaxşı, nəyin haqlı və nəyin pis, haqsız olduğunu aydın və doğru mühakimə etməyə və ya bir sözlə dedikdə, düşünməyə alışmış və nəhayət, hiss və duyğuları alicənab və yüksək istiqamət almış, yəni hər bir ədalətli və gözəl işə məhəbbət bağlamış adama deyilir. İnsanın tam mənası ilə təhsilli olması üçün bu xassələrin üçü də geniş bilik, düşünmək adəti və duyğuların nəcibliyi lazımdır. Yeri gəlmişkən qeyd etməliyik ki, bu günkü cəmiyyətə hazırlaşdırılacaq yeniyetmələrin düşünə bilmək qabiliyyətinin formalaşdırılması daha zəruridir. Təlimlə tərbiyənin bir-birinə uzlaşdırılması onların eyniləşdirilməsi demək deyil. Tərbiyə ilə təlim anlayışları arasında olan mövcud fərqlər onların hər birinin özünəməxsus məntiqi vəzifələri, prinsip və üsulları olması ilə izah olunur. "Pedaqogika" müəllifləri qeyd edir ki, tərbiyənin sistemi də təlimin sistemindən fərqlidir. Belə nəticə çıxarılır ki, tərbiyə işi ümumxalq işidir. Yəni yeniyetmələrin tərbiyələndirilməsində ailə nə qədər məsuldursa, dövlət və xalq da o qədər məsuldur.

Tərbiyə bir pedaqoji prosesi kimi uşaqlara təkcə yeni müsbət keyfiyyətləri aşılamaqdan

ibarət deyildir, onlarda yaranmış pis və zərərli keyfiyyətlərin, sifətlərinin aradan qaldırılması, ləğv edilməsi də bu prosesin tərkib hissəsidir. «Pedaqogika» müəlliflərinin K.D.Uşinskidən gətirdikləri sitat belədir: Öz xassəsinə görə köhnə adət ya öz qidasının çatmaması, yəni adətinin yaranmasına səbəb olan hərəkətlərin dayanması nəticəsində, və ya ona əks olan başqa bir adətin kəsb edilməsi ilə ləğv olunur... Adətləri tərk etdirməkdə bu vasitələrin hər birindən eyni zamanda istifadə edilməlidir. Yəni mümkün qədər zərərli adət üzrə olan hərəkətlərin yaranmasına səbəb olan şeyi uşaqdan uzaqlaşdırmalı, eyni zamanda da uşağın fəaliyyətini başqa cəhətə yönəltməlidir. Əgər adəti tərk edərkən eyni zamanda uşağa yeni fəaliyyət üçün imkan verməsək, uşaq istər-istəməz köhnə qayda üzrə hərəkət edəcəkdir.

Tərbiyə prosesinin daha maraqlı bir xüsusiyyəti də uşaqlarım bütün həyat və fəaliyyətlərinin düzgün təşkil edilməsini tələb etməsindədir. 1960-1980-ci illərin pedaqoji tərbiyə işində nümunəvi proqram tələb edirdi. Elə "Pedaqogika"da belədir. "Pedaqogika"da əxlaq tərbiyəsinin prinsipləri mövzusu professor M.Muradxanov tərəfindən işlənmişdir. O yazırdı: " Tərbiyə praktikasında özünü doğrultmuş prinsiplər aşağıdakılardır: 1.tərbiyənin əməklə, həyatla əlaqələndirilməsi (kitabda kommunizm quruculuğu ilə); 2.yaşa uyğunluq; 3.kollektivdə və kollektiv vasitəsilə tərbiyə; 4.fərdi yanaşma; 5.nikbinlik; 6.hörmət və tələbkarlıq; 7.tələblərdə vahidlik".

Tərbiyənin həyatla əlaqələndirilməsi müxtəlif yollarla həyata keçirilir. Zənnimizcə, bu gün həmin prinsipin daha orijinal və məqsədəmüvafiq yolları işlənib hazırlanmalıdır. Professor M.Muradxanova görə, uşaqlarla aparılan hər hansı bir tərbiyəvi iş də onun yaş xüsusiyyətləri mühüm rol oynayır. Uşaqları vaxtından əvvəl böyük saymaq, onlarla böyüklər kimi davranmaq yaxud böyük ikən onları uşaq hesab etmək, onlarla kiçik kimi davranmaq yolverilməzdir. Kiçik uşaqlarda adətlərdə daha tez yaranır. Hərəkətlərin təkrarı ilə adi hərəkətləri adətə çevirmək daha asan olur. Əqidə isə yuxarı yaşlarda təşəkkül tapmağa başladığından nəsihət və izahat işləri daha çox əhəmiyyət kəsb edir.

Pedaqogika elminin inkişaf etməyə başladığı hələ ilk illərdə məlumdur ki, tərbiyə ictimai hadisədir və onu həyata keçirmək bir adamın işi deyil. Məşhur novator pedaqoq A.S.Makarenko yazırdı ki, müəllim+şagird günün heç bir nəticə hasil ola bilməz. Nə məktəb-uşaq nə də ailə-uşaq onların mexaniki birliyi demək deyildir. Deməli tərbiyə işində nə qədər çox tərəf iştirak etsə (vahid tələblə), tərbiyə işinin effekti o qədər artıq olar. Bu qənaət tərbiyədə fərdi yanaşmanı inkar etmir ("Pedaqogika"nın qənaəti belədir ki hər insan bir xarakter deməkdir, onların tərbiyəsi ümumin çərçivəsində vahid qrafikə tabe etdirə bilməz). O mənada tərbiyə işi fərdi yanaşma da tələb edir. Klassik pedaqogikadan gələn tərbiyə işində nikbinlik insanın sevgidən, tərbiyə işinin uğurundan, uğurlu olacağına inamdan doğulur. Ona görə də hər bir gənc ruhun tərbiyəsində ona inamı təbliğ edən "Pedaqogika" haqlı idi. Öz nəzəri fikirlərini təcrübədə təsdiq edən A.S.Makarenko yazırdı: "Siz qarşınızda tərbiyə olunmalı oğlan ya qız gördükdə, onda gözə görünənlərdən daha artıq qabiliyyətlərin gələcəkdə inkişaf edəcəyini nəzərdə tutmalısınız. Bu həmişə özünü doğruldur. Yaxşı ovçu hərəkət edən hədəfə güllə atarkən hədəfdən çox irəli nişan aldığı kimi pedaqoq da öz tərbiyə işində çox irəlini görməlidir".

Pedaqogikada daha çox insana inam, hörmət və ondan da çox tələbkarlıq daim özünü doğrultmuş bir prinsipdir. "Pedaqogika"da bu öz əksini tapıb. Burada bu prinsip belə ifadə olunur: "Uşağa mümkün qədər çox hörmət etmək və ona çoxlu tələblər vermək düzgündür". Ayrı-ayrı müəllimlərin təcrübəsində bu prinsip həmişə yerində tətbiq edilmir. Bunu öz təcrübəsində də sınaqdan çıxaran Makarenko "uşağın keçmişində eşələnməyi məsləhət görürdü". Tərbiyə işinin mürəkkəbliyi, çoxtərəfliyi, üsul və vasitələrinin daim dəyişkənliyi tələb edir ki, tərbiyənin məqsədinin dəyişməzliyinə istinadən bütün tələblərdə vahidlik gözlənilməlidir.

Tərbiyənin aşılanmasında ağıl, iradə, hissiyat və adətlərin rolu əvəzsizdir. Bu professor M.Muradxanovun qənaətidir. Burada həm də əxlaqi anlayışın, əqidənin rolu təbliğ edilir.

Tərbiyə işində əsasən inandırma, alışdırma, rəğbətləndirmə və cəzalandırmanın gücündən istifadə edilməlidir. Tərbiyədə ən güclü üsul müəllimin tərbiyəsinin (elə həm də valideynin) şəxsi nümunəsi hesab edilməlidir. Əski pedaqogikada daha çox pedaqoji psixologiyanı tədqiq edən K.D.Uşinski bu haqda yazırdı: "Tərbiyəçinin cavan ruha təsiri elə bir tərbiyə qüvvəsidir ki, heç bir dərslik heç bir əxlaqi nəsihət heç bir cəza və rəğbətləndirmə onu əvəz edə bilməz". Bu mənada müəllim və tərbiyəçi üzərinə yüksək əxlaqi vəzifə düşür. Müəllim heç bir vaxt şagirdlərdə yaratmaq istədiyi əxlaqi keyfiyyətin əksinə hərəkət etməməlidir. O uşaqlarda yaratmaq istədiyi əxlaqi sifətləri ona aşılamağa təşəbbüs etməzdən əvvəl öz gündəlik həyat və davranışlarında bu sifətləri əks etdirməlidir.

Uşaqların dünyagörüşünün inkişaf etdirilməsi, tədris olunan fənlərin sayəsində buna nail olmaq 1960-1980-ci illər pedaqogikasının əsas vəzifələri idi. Bu zaman uşaqlarla aparılan fərdi işlərdə unudulmamışdır. Uşaqların əməksevərlik ruhunda tərbiyələndirilməsi, onlarla aparılan tərbiyə işinin təşkilinə xüsusi tələblərlə yanaşmağı,estetik tərbiyə işini, bu tərbiyənin vəzifə və prinsiplərindən, yol və vasitələrindən çıxış etməyi tələb edirdi. Uşaqların bir insan olaraq yetişdirilməsi onların fiziki tərbiyəsində qayğı istəyir. Fiziki tərbiyəsinin aşılanması təbii amillərlə, gündəlik rejimlə və s. ilə bağlıdır. Uşaqların hələ kiçik ikən gələcəkdə onu əhatə edən cəmiyyətə hazırlanması birgə yaşayış qanunlarının vaxtında aşılanmasını, onların düşəcəkləri qrup və təşkilatlara yönəldilməsinin zəruriliyi "Pedaqogika"da öz əksini tapıb.

Uşaqların tərbiyəsində məktəb və ailənin birgə işi zaman-zaman həmişə diqqət mərkəzində olub. Onlar ayrı-ayrı vəzifələr daşısalar da məqsəd eynidir. Bu zaman ailənin məktəblə, ictimaiyyətlə müxtəlif əlaqə formalarından istifadə edilir. "Pedaqogika"da müəllim işinin xüsusiyyətləri, məktəbə rəhbərlik geniş şəkillərdə şərh olunur. Məktəbin maddi-texniki bazasından məktəb sənədlərinə daxil hesabat işlərindən, şagirdlərə və müəllimlərə aid sənədlərdən nümunələr əsasında geniş şəkildə bəhs olunur. Bu dərsliyin təhlili göstərir ki, onu pedaqogika təcrübi əhəmiyyəti öz yerini qoruyub saxlamaqdadır. Gələcəkdə "Pedaqogika" dərsliklərinin hazırlanmasında professor M.Muradxanovun ümumi redaktorluğu ilə 1964-cü ildə nəşr edilmiş kitabın dil sadəliyindən, məntiqi ardıcıllığından, ən başlıcası isə biliklərin mənimsəməsinin burada bəhs edilən üsul və vasitələrindən yararlanmalıdır.

**Məqalənin aktuallığı.** Uşaq şəxsiyyətinin formalaşmasında təlim mühüm əhəmiyyət kəsb edir. Bunun vasitəsilə uşaqlar elmi biliklərə, faydalı vərdiş və bacarıqlara yiyələnir, onların görüş dairəsi genişlənir və dünya baxışları təşəkkül tapır. Belə nəticə çıxarmaq olar ki, təlim uşaq şəxsiyyətinin təşəkkülündə mühüm vasitədir. Tərbiyə işlərinin nəticəsi də bilavasitə təlim müvəffəqiyyətinin artmasına təsir edir. Təlimlə tərbiyənin belə qarşılıqlı əlaqəsi sayəsində uşaq zehni cəhətdən inkişaf edir, elmi biliklərə və əxlaqi sifətlərə malik olur. Qeyd olunan məsələ həmişə olduğu kimi, müasir dövrdə də pedaqoji kollektivin qarşısında duran və daim həllini gözləyən əsas məsələlərdəndir. Məqalə də bu mövzuya həsr edildiyindən onu aktual saya bilərik.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə təhsillə tərbiyənin qarşılıqlı əlaqəsini xüsusi qeyd olunmaqla bu istiqamətdə xarici ölkə pedaqoqlarının əsərlərindən, aparılmış müxtəlif tədqiqatların nəticələrindən konkret nümunələr gətirilir, tərbiyə praktikasında özünü doğrultmuş prinsiplər nəzərdən keçirilir. Eyni zamanda, tərbiyə prosesinin xüsusiyyətlərindən, onun mahiyyətindən, prinsip və üsullarından, bədii və fiziki tərbiyənin vasitə və yollarından, ümumən uşaq kollektivinin formalaşdırılmasından, məktəbşünaslıqdan, məktəbdə sinif rəhbərinin işindən, habelə uşağın tərbiyəsində məktəb və ailənin birgə işindən bəhs edilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Pedaqogika (M.Muradxanovun redaktorluğu ilə). Bakı, 1964.
2. Həsənov A., Ağayev Ə. Pedaqogika. Bakı, 2007.
3. Əliyev R., Əhmədov N. Təhsil müəssisələrində tərbiyə işinin təşkili. Bakı, 2004.
4. Quliyev S. Ailə tərbiyəsinin mühüm problemləri. Bakı, 2005.

**А.З. Залов**

## Развитие теоретической педагогики в Азербайджане в 60-х годах прошлого века

### Резюме

Обучение играет важную роль в формировании личности ребенка. Таким образом, дети вооружаются научными знаниями, полезными привычками и навыками, расширяются их кругозор и формируются мировоззрения. Можно сделать вывод, что обучение - важный инструмент в формировании личности ребенка. Результаты воспитательной работы, в свою очередь, положительно сказываются на успешности обучения.

В статье также рассматриваются особенности учебного процесса, его сущность, принципы и методы, средства и способы художественного и физического воспитания, формирование коллектива ребенка в целом, учеба в школе, работа классного руководителя в школе, а также совместная работа школы и семьи.

**A.Z. Zalov**

## Development of theoretical pedagogy in Azerbaijan in the 60s of the last century

### Summary

Training plays an important role in the formation of a child's personality. In this way, children are armed with scientific knowledge, useful habits and skills, their horizons expand and worldviews are formed. It can be concluded that training is an important tool in the formation of a child's personality. The results of educational work, in turn, have a positive effect on the success of training.

The article also discusses the features of the educational process, its essence, principles and methods, means and ways of artistic and physical education, the formation of the child's team in general, school studies, the work of the class teacher at school, as well as the joint work of school and family.

**Redaksiyaya daxil olub:** 27.11.2020